AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NƏSİMİ ADINA DİLÇİLİK İNSTİTUTU

Əlyazması hüququnda

QURBANOVA LALƏ QƏDİR QIZI

DİLİN LEKSİK SİSTEMİNDƏ TERMİNOLOJİ LEKSİKANIN YERİ

10.02.19 - Dil nəzəriyyəsi

Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

AMEA • INFORMASIYA TEXNOLOGIYALARI INSTITUTU

Bakı - 2005

12.05.2005

Dissertasiya Azərbaycan Dillər Universitetinin Ümumi dilçilik kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor M.Ş.QASIMOV

filologiya elmləri doktoru, professor A.M.BABAYEV

Rəsmi opponentlər: filologiya elmləri doktoru, S.A.SADIQOVA

filologiya elmləri namizədi, dosent F.F.Cahangirov

Aparıcı Müəssisə: Azərbaycan Dövlət Pedaqoji Universiteti

Müdafiə «15» noyabr 2005-ci il tarixdə saat 16^{00}-da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun nəzdində filologiya elmləri doktoru və filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən Şuranın (D. 01.141) iclasında olacaqdır.

Ünvan: Bakı, Az. 1143, H.Cavid prospekti, 31, 5-ci mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan MEA-nın Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat «7» oktyabr 2005-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
filologiya elmləri doktoru,
professor: Q.İ.MƏŞƏDİYEV

İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı. Terminologiya – özü sistem təşkil edir. Terminlərin funksiyası, özünəməxsusluğu və istiqamətlənməsi isə onların sistemləşməsini şərtləndirir. Dilin leksik qatının xüsusi funksiyalı hissəsini təşkil edən vahidlər terminoloji sistem yaradır. Bu sistemə daxil olan sözlər fərqli xüsusiyyətləri, spesifik əlamətləri ilə digər sözlərdən seçilir ki, onlar da dilin elmi üslubunun formalaşmasında başlıca rol oynayır. Semantik xüsusiyyətləri ilə digər lüğəvi vahidlərdən seçilən terminlər dilin leksik sistemində xüsusi bir qat təşkil edir.

Terminlər bir-biri ilə əlaqə və münasibətdə olan elmi anlayışların işarəsi kimi sistem təşkil edir. Dilin terminoloji sistemi də mövcuddur ki, bu da bütövlükdə dil sisteminə daxildir. M.Ş.Qasımov yazırdı: «Termin dəqiq və qısa olmaqla bərabər, eyni zamanda müəyyən sistemə də malik olmalıdır. Son zamanlar dilçilik ədəbiyyatında terminin belə bir xassəsindən qətiyyətlə bəhs olunur. Lakin sistemlik, yaxud sistematiklik məsələsini hərə bir cür başa düşür. Dilçilərdən bir qrupu sistemliyin təsnifat xarakteri daşıdığını söyləyir; digər bir qrupu isə belə hesab edir ki, terminə sözyaradıcılığı sistemliyi xasdır; nəhayət, üçüncü qrup dilçilərin fikrincə, terminin sistemliyi ikili xarakter daşıyır: termin bir tərəfdən terminoloji sistemin, digər tərəfdən isə dil sisteminin elementidir.

Bizcə, terminə verilən sistematiklik tələbi ilə əlaqədar birinci növbədə terminin tərkib hissələri və elementləri ilə əks olunan əlamətlərin ardıcıllıqla seçilməsinə diqqət yetirilməlidir. Burada əlamətlərin həmişə bircinsli olmasına çalışmaq lazım gəlir. Çünki terminlər sisteminin düzgünlüyü yalnız əlamətlərin müəyyən sistem üzrə seçilməsindən deyil, eyni zamanda əlamətlərin özlərinin xarakterindən asılıdır»[1].

Elmi anlayışların işarəsi olan terminlər dilin leksik tərkibinin önəmli bir hissəsidir. «Son dövrlərdə dilçilərin terminologiyaya artan marağı aydın və anlaşılandır. Bu, müasir elm və istehsalın yaratdığı çoxlu sayda terminoloji adlara terminoloqların verdiyi əks reaksiyadır»[2].

---

[1] Qasımov M.Ş. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, 1973, s. 26.

[2] В.П.Даниленко. Лексико-семантические и грамматические особенности слов-терминов. –Исследования по русской терминологии. Москва, 1971, с. 7.

Dilin leksik tərkibindəki ən böyük və diqqətəlayiq laylardan biri də terminlərdir. Dissertasiya işində ilk dəfə olaraq həmin termin layının başqa laylarla münasibəti, onlarla əlaqəsi, formalaşması və s. problemləri Azərbaycan və ingilis dillərinin materialları əsasında araşdırılır. Müasir dövrümüzə qədər terminlərin bu və ya digər xüsusiyyətləri və sahə terminologiyaları haqqında çox deyilmiş və çox yazılmışdır. Lakin dilin leksik sistemində terminlərin yerini, mövqeyini müəyyənləşdirən, onu dilin leksik qatının digər laylarından ayıran spesifik cəhətləri müəyyənləşdirən fundamental monoqrafik tədqiqat əsəri, demək olar ki, yoxdur. «Terminologiya sahəsində keçmiş sovet və dünya dilçiliyində aparılan çoxsaylı tədqiqat işlərinə baxmayaraq, terminoloji leksikanın linqvistik baxımdan hərtərəfli araşdırılması öz problem həllini hələ də tam şəkildə tapmamışdır. Ona görə də dilin terminoloji qatının leksik-semantik və qrammatik kateqoriyalar prizmasından ümumi ədəbi dil səviyyəsində daha dərindən öyrənilməsi ehtiyacı hələ də qalmaqdadır»[1]. Bu baxımdan dilin ümumi leksik sistemində terminlərin yerinin müəyyənləşdirilməsi, onu ümumi ədəbi dillə bağlayan mühüm əlamətlərin üzə çıxarılması və spesifik xüsusiyyətlərin tədqiq edilməsi bu gün də öz aktuallığını saxlamaqdadır. Termin yalnız elmi leksik vahid deyil, həm də cəmiyyətin sosial-ictimai fəaliyyətinin bütün başqa sahələrinin, dilinin leksik vahididir[2]. Bu nöqteyi-nəzərdən dissertasiya işinin belə bir mövzuya həsr edilməsi və dilçilik üçün əhəmiyyətli bir sahənin araşdırılması elmşünaslıq üçün aktual problemlərdən sayılmalıdır.

Tədqiqatın obyekti. Araşdırma üçün dilin leksik tərkibi əsas götürülmüşdür. Dissertasiyada obyekt olaraq Azərbaycan dilinin leksik materialları seçilsə də, yeri gəldikcə başqa dillərə, xüsusilə ingilis dilinə də müraciət edilir, digər dillərin müxtəlif sahə terminoloji materialları da ümumiləşdirilərək müəyyən fikir söylənilir. Terminin dilin leksik sferasında yeri dedikdə təkcə Azərbaycan dili nəzərdə tutulmur, bir obyekt olaraq Azərbaycan və ingilis dillərinin leksik tərkibinə ümumi dilçilik mövqeyindən yanaşılır.

---

[1] В.П.Даниленко. Göstərilən əsəri, c. 7

[2] S.A.Sadıqova. Azərbaycan dilində fizika-riyaziyyat terminlərinin formalaşması və inkişafı. Bakı, «Elm», 1997, səh. 14-15.

Tədqiqatın predmeti. Tədqiqatın predmeti terminoloji leksikadır. Burada həmin leksikanın başlıca xüsusiyyətləri, müxtəlif sistemli dillərdə oxşar və fərqli yaranma yolları araşdırılır. Dilin leksik tərkibində terminoloji leksikanın yeri məsələsi araşdırmanın obyektidir ki, ümumi obyektdən xüsusi predmet seçilib tədqiq edilir.

Tədqiqatın məqsəd və vəzifələri. Mövzunun «Dilin leksik sistemində terminoloji leksikanın yeri» adlandırılması təsadüfi deyildir. Dissertant dilin çox zəngin, çoxsahəli sözlər sistemində terminlərin yerini müəyyənləşdirməyi, onların ümumi leksik layda mövqeyini üzə çıxarmağı qarşısına məqsəd qoymuşdur. Bunun üçün aşağıdakı vəzifələri yerinə yetirmək lazım gəlmişdir:

- dilin ümumi leksik sistemini xarakterizə etmək; leksik sistemdə də terminoloji sistemin yerini müəyyənləşdirmək;
- terminlərin meydanagəlmə zərurəti və səbəblərini üzə çıxarmaq;
- terminlər sisteminin yaranması faktorlarını dəqiqləşdirmək;
- terminlərin xüsusiyyətlərini izah etmək, onların ümumişlək leksik vahidlərdən fərqli sərhədlərini təyin etmək;
- termini elmi anlayışın işarəsi kimi səciyyələndirmək;
- terminlərin yaranma yolları və üsullarını dil faktları əsasında öyrənmək;
- terminlərin xüsusi funksiyasını aydınlaşdırmaq;
- terminoloji leksikanın müəyyənləşdirici (definitivlik) xüsusiyyətini adlandırma xüsusiyyətindən fərqləndirmək;
- terminlərə xas olan, onları xarakterizə edən əsas əlamətləri müəyyənləşdirmək;
- terminlərə yanaşmanın əsas parametrlərini izah etmək;
- terminlərin leksik sistemdəki rolunu və mövqeyini aydınlaşdırmaq və s.

Tədqiqatın elmi yeniliyi. Yuxarıda qeyd edildiyi kimi, terminlər kəmiyyətcə dildə o qədər çoxdur ki, onları müəyyən şəkildə seçib qruplaşdırmaq, dilin leksik sistemində onların nə kimi yeri olduğunu dəqiqləşdirmək dilçilik elminin qarşısında duran əsas məsələlərdən biridir. Bundan əlavə, tədqiqat işində ilk dəfə olaraq terminlər müxtəlif məqsədlərlə, müxtəlif mövqelərdən araşdırılmış, onların dilin ümumi leksik sistemində tutduğu mövqeyə aydınlıq gətirilmişdir. Bunları ümumiləşdirib müəyyən nəticələrə gəlmək, terminoloji vahidlər haqqında tövsiyə və

təkliflər vermək də dissertasiya işinin elmi yeniliyi kimi qəbul edilə bilər.

Tədqiqatın metodları. Hər bir araşdırmanın metodu onun xarakterindən asılı olur. Bu dissertasiya işinin vəzifələrinin tələbinə görə biz müqayisəli - tutuşdurma və təsviri metodlardan da istifadə etmişik. Azərbaycan və ingilis dillərində terminləşmə prosesini araşdırarkən isə tipoloji müqayisə üsuluna müraciət edilmişdir.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti. Dissertasiya işində terminoloji leksikanın bir dil vahidi kimi səciyyəsi verilmiş, onların elmi-ədəbi dilin yaranması və inkişafındakı rolu nəzəri cəhətdən əsaslandırılmışdır. Terminlər dilin leksik sisteminin elə bir layını təşkil edir ki, onlar başqa layın vahidlərindən özünəməxsus xüsusiyyətlərinə görə dərhal seçilir. Tədqiqat işində həmin xüsusiyyətləri nəzəri cəhətdən araşdırmağa çalışmışıq.

Bu baxımdan dissertasiyanın nəzəri müddəaları termin və terminologiya məsələlərinin ümumi və xüsusi dilçilik aspektindən araşdırılması zamanı, dilin bütövlükdə leksik sisteminin təhlilində və tipoloji dilçilik tədqiqatlarında elmi mənbə kimi əhəmiyyətli rol oynaya bilər.

Terminologiyanın elm sahəsi olaraq predmeti terminlərdir. Terminlərin xüsusiyyəti, yaranma yolları, başqa dil vahidlərindən onların fərqi, ümumişlək sözlərin terminləşməsi, habelə determinləşmə prosesi tədrisdə də öyrənilir. Dissertasiya işində araşdırılan bu aktual məsələlər tədris-metodiki və praktik cəhətdən iki müxtəlif sistemli dilin tədrisi işinə də xeyli kömək edə bilər. Çünki doğma dil ilə hər hansı bir dilin (konkret halda ingilis dilinin) qarşılaşdırılması zamanı bu dillərdəki ümumi və fərqli cəhətlər daha dərindən aşkara çıxarılır. Dillərin qarşılaşdırma şəklində öyrənilməsi müqayisəyə cəlb olunan hər iki dilin uyğun gələn və fərqli cəhətlərini müəyyənləşdirməyə, ana dilinin və müqayisə olunan dilin özünəməxsus xüsusiyyətlərini daha dərindən anlamağa, doğma dili tədqiq edərkən nəzərdən qaçan bəzi əlamətlərini müqayisə yolu ilə üzə çıxarmağa imkan verir. Bundan əlavə, başqa sahələrdə terminyaratma yollarının araşdırılıb tövsiyələr verilməsi, ayrı-ayrı sahələrə aid terminoloji lüğətlərin hazırlanması işində də bu işin praktik əhəmiyyəti ola bilər.

Tədqiqatın aprobasiyası. Dissertasiya işinin məzmunu müəllifin bir monoqrafiyasında, altı elmi məqaləsində tamamilə əhatə edilmişdir. Dissertant mövzu ilə əlaqədar elmi-nəzəri konfranslarda məruzələrlə çıxış etmişdir.

Tədqiqatın quruluşu. Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

TƏDQİQATIN MƏZMUNU

Dissertasiyanın «İşin ümumi səciyyəsi» adlanan hissəsində mövzunun aktuallığı, məqsəd və vəzifələri, elmi-nəzəri və praktik əhəmiyyəti, elmi yeniliyi və tədqiqat obyekti əsaslandırılır. «Giriş»də mövzu ilə bağlı nəzəri məsələlər izah edilir, terminoloji məktəblərin yaranması və fəaliyyəti və bu məktəblərin banileri, eləcə də Azərbaycan dilçiliyindəki terminoloji tədqiqatların istiqamətləri haqqında söhbət açılır.

Məlumdur ki, terminlər dilin leksik qatında xüsusi lay təşkil edir və elmi anlayışların xüsusi işarəsi kimi müəyyən sistem yaradır. «Termin elmi və ya istehsalat-texnoloji anlayışların adlarını bildirərək xüsusi istifadə sahəsinə aid definisiyaya malik olan söz və söz birləşmələridir.»[1] Terminologiya və ya terminşünaslıq isə dilin lüğət tərkibində xüsusi bir sahəni əhatə edən bu tipli dil vahidlərinin linqvistik təbiətini araşdırıb öyrənir.

Terminin tarixi qədim olsa da, terminologiya dilçiliyin çox cavan sahələrindən sayılır. O, bir elm sahəsi kimi XIX əsrdə formalaşmağa başlamışdır.

Azərbaycan dilçiliyində terminologiyanın nəzəri və praktik məsələlərinə maraq XX əsrin əvvəllərindən başlayır və qısa bir dövrdə dilçiliyimizin bu sahəsində böyük irəliləyişlər müşahidə edilir.

1922-ci ildə yaradılan istilah komissiyası Azərbaycan dili terminoloji sisteminin formalaşmasında, sabitləşməsində və unifikasiyasında əhəmiyyətli rol oynamış, bu sahədə ayrı-ayrı görkəmli şəxsiyyətlərin böyük xidmətləri olmuşdur. Təsadüfi deyildir ki, son illərdə dilçiliyin ən çox tədqiq sahələrindən biri də terminologiya məsələləridir. Bu sahəyə bir sıra doktorluq və namizədlik dissertasiyaları həsr edilmişdir.

---

[1] В.П.Даниленко. Göstərilən əsəri, 1971, s. 11.

Dissertasiyanın **birinci fəslində** terminlərin elmi üslubda yeri məsələsi aydınlaşdırılır. Dörd bölmədən ibarət olan bu fəsildə, əsasən, elmi üslubun bir sıra xüsusiyyətləri terminin mövqeləri (xüsusi məna ifadə edən, definitiv funksiya daşıyan xüsusiyyətlər) terminə yanaşmanın parametrləri, terminlərin mikrosistemi haqqında söhbət açılır.

Termin məsələsi XX əsrin əvvəllərindən başlayaraq elmin bütün sahələri üzrə aktual problemə çevrilmişdir. Elmi üslub insan təfəkkürünün elə bir sahəsidir ki, onu dərk etmək, mahiyyətini anlamaq son dərəcə mürəkkəbdir. Elmi üslubun əsas mahiyyəti ondan ibarətdir ki, burada hər bir anlayış hamının başa düşmədiyi və nitqində istifadə etmədiyi terminlərlə ifadə edilir. Bu mənada dilin terminoloji layı ən çətin, ən sürətlə dəyişən hissədir. Elmi üslubda heç bir emosionallığa, bədiiliyə, məcazlara yol verilmir. Bu üslubun başlıca cəhəti onun elmi idrak forması olmasıdır ki, bunu da məhz terminlər təmin edir. Hər bir elm sahəsinin özünəməxsus terminləri həmin sahənin mütəxəssislərinin bir-birini anlamasını təmin edir. Bu haqda ən dürüst fikri B.Çobanzadə söyləmişdir: «Elmin vətəni yoxdur, insan fikirləri arasında beynəlmiləl cahani olaraq doğulan birinci əsər elmdir. Dünyanın hər yerində faydalı və doğru olmayan fikir elmi sayıla bilməz. Bu elmin dili də cahani və beynəlmiləl olmalıdır...Bugünkü elmlərdə isə bu cahanilik dildə də özünü göstərməkdədir. Texnologiya, medisina, riyaziyyat kimi elmlərin dili doxsan faiz ümumidir. Bir ingilis doktoru ilə bir türk, yaxud çin doktoru bir-birini kolayca anlar və bir-birinin reseptlərini oxuya bilər».[1]

Tarixi təcrübə göstərir ki, zaman keçdikcə mənaca eyni olan müxtəlif mənşəli terminlər bir-birini əvəz etmiş, şifahi nitqdə və yazılı ədəbiyyatda daha möhkəm kök salmış terminlər qalmışdır. Elmi üslub yalnız elmi dairədə anlaşılır, dar çərçivədə işlədilir, fikir dəqiq ifadə edilir. Elmi dil elmi anlayışın özü kimi aydın və konkret olmalıdır. Hər hansı bir elmi müddəa ona aid olan terminlərlə birbaşa ifadə edilməlidir. Bu zaman elmi üslubda terminlərə münasibət məsələsi aydınlaşmış olur. Elmi dili (şərti olaraq dil deyirik) əcnəbi və beynəlmiləl terminlərlə doldursaq, onları ehtiyac olmadan işlətsək, onda dilimiz sürətlə özgələşər. Əksinə, öz sözlərimizlə anlayışı ifadə etsək, elmimiz dünya standartlarından

---

[1] B.V.Çobanzadə. İstilah terminoloji işləri. «Azərbaycanı öyrənmə yollu». Bakı, 1930, № 3, s.4.

aşağı düşər. Bununla belə, əcnəbi sözləri kök kimi alıb ona öz şəkilçilərimizi əlavə etsək, onda ortaq bir mövqe tutmuş olarıq. Məsələn, hamının başa düşdüyü və tez-tez işlətdiyi *səmərələşdirici, kəsici, göstərici, rabitəçi* və s. kimi terminlər çox asanlıqla başa düşülür.

Birinci fəslin «Termin anlayışı» adlanan bölməsində termin və onun spesifik xüsusiyyətləri, terminin dil sisteminde yeri və digər məsələlərə aydınlıq gətirilir.

«Termin də sözdür, özü də müstəqil məna daşıyan sözlər sırasına daxildir. Lakin terminləri başqa sözlərdən fərqləndirərkən, terminlərin öz spesifikasiyası dəqiqləşdirilməlidir»[1].

Dilin leksik sisteminde mövcud olan hər hansı bir söz sadəcə olaraq əşyanı adlandırmır, həm də onun anlayışla əlaqəsini göstərir. Sözsüz, terminsiz heç bir elmi anlayış ifadə edilə bilməz.

Terminə dilçilikdə müxtəlif mövqedən yanaşılmış, onun fərqli şəkildə izahı verilmişdir. Lakin bütün mövqelərdə termin elmi anlayışı ifadə edən dil vahidi, xüsusi məna ifadə edən, definitiv funksiya daşıyan və s. xüsusiyyətlərə malik müstəqil söz kimi izah edilir[2].

Terminlərə xas olan və onu digər leksik vahidlərdən fərqləndirən əsas əlamətlərdən biri onun xüsusi işlənmə sahəsinə malik olmasıdır. Bu o deməkdir ki, terminlər ümumişlək sözlər kimi geniş funksional fəaliyyət sferasına malik ola bilmir. O, söz termin adlandırılmalıdır ki, «ona elm, texnika və incəsənət sahəsinde tam şəkildə müəyyənləşmiş hər hansı bir anlayış uyğun gəlir.»[3] Terminlərin konkretlik xarakteri elmi üslubun özünəməxsusluğu ilə üst-üstə düşür. O da məlumdur ki, hər bir söz müəyyən hüdudlar daxilinde termin ola bilər. «Söz termin olan kimi onun mənası xüsusiləşir və məhdudlaşır. Sözün düşdüyü bu və ya digər mühitde terminologiyadan asılı olaraq yeni məna alınır».[4]

Bununla yanaşı, terminin üslubi cəhətdən dilin leksik sisteminin xüsusi layı olması, onun daha çox ümumişlək sözlərlə müqayisə edilməsi, təkmənalılıq keyfiyyətini qoruyub saxlaması çoxmənalılıqdan, emosionallıqdan məhrum olması, onun dəqiqliyi,

---

[1] S.A.Sadıqova. Azərbaycan dilinin terminologiyasının nəzəri problemləri. Bakı, 2002, s. 6

[2] S.A.Sadıqova. Definitiv terminlərin yaranması. Terminologiya məsələləri. Bakı, «Elm», 2002, s.11

[3] Е.М.Галкина-Федерук. Современный русский язык. Лексика (курс лекции). Москва, 1954, с.117.

[4] А.А Реформатский. Введение в языкознание. Москва, 1955, с. 81.

yığcamlığı və s. xüsusiyyətləri dil vahidinə yanaşmanın başlıca parametrləri sayıla bilər.

Termin elmi anlayışın işarəsidir. Termin anlayışın daşıyıcısıdır. Elm inkişaf etdikcə onun anlayışları genişləndikcə həmin anlayışların dildə işarəsi olan terminoloji leksika da zənginləşir.

Dilin terminoloji sistemi də bütövlükdə dilin ümumi sisteminə daxildir. Sistem yaratmaq üçün dil vahidləri arasında möhkəm əlaqə olmalıdır. Bu mövqedən yanaşdıqda dilin leksik tərkibindəki sistemlə digər sistemlərin arasında fərqi görməmək olmaz.

Terminlər sisteminin yaranması üçün onun tərkib hissələrinin sistemliliyini, sırasını, ardıcıllığını da nəzərə almaq lazımdır. Məsələn: **a, anti** (əks, zidd), **avia** (uçma), **avto, aqro** və s. termin-elementləri ilə başlayan leksik vahidlər bütöv bir sistem təşkil edir. Bu sözönləri ilə bir sıra elmlərin terminləri yaranır. Məsələn, *anormal, amoral* (pedaqoji); *aneroid, anemometr* (fiz.); *antidemokratiya, antifaşist, antikommunist* (siyasət); *anemiya, anesteziya, antibiotik, antivitamin* (tibb); *antidepesant* (kim.) *antonim* (dilç.) və s.

İngilis dilində də həmin termin elementləri ilə başlayan və müxtəlif sahə terminoloji sistemlərə aid terminlər kifayət qədər kəmiyyət göstəricilərinə malikdir. Məsələn, ***adenoma*** - *adenoma*, ***adenistis*** - *vəzin iltihabı*, ***antivirus*** - *antivirus*; ***aviabatalion*** - *aviabatalyon*; ***atogamous***-*avtoqamma*, ***autogyro*** -*vertolyot*, ***aviator***-*aviator* (təyyarəçi); ***anaemia*** - *anamiya*, ***anaconda*** -*anakonda (ilan)* və s.

Dissertasiyanın **II fəsli** "Termin lüğət tərkibinin xüsusi layı kimi" adlanır. Beş bölmədən ibarət olan bu fəsildə terminlərin lüğət tərkibində nə kimi rolu olduğundan, onun ümumişlək sözlərlə fərqi, terminlərdə dubletlik, çoxmənalılıq, omonimlik və determinləşmə məsələləri araşdırılır.

Məlumdur ki, ümumişlək sözlər məişətdə hamı tərəfindən başa düşülən, geniş miqyasda işlənən vahidlərdir. Onlarda məntiqi və terminoloji təyinat zamanı semantik dəqiqləşmə prosesi baş verir. Dildə işlənən hər hansı adi söz belə, sahə terminologiyasına daxil olduqda terminləşir və həmin sahənin müəyyən bir anlayış bildirən terminə çevrilir. Məsələn, dilimizdə işlətdiyimiz *dağ, çay, çəmən* –coğrafi termin; *xətt, bucaq, kvadrat, kub* –həndəsi termin; *burun, qulaq, beyin*-fiziologiya termini; *əsəb, xəstə, müalicə* –ümum tibbi termin; *səs, say, sifət* –dilçilik termini; *əsr, qərinə, il, era* –tarixi termin kimi işlənir. Ümumişlək sözün terminləşmə prosesinə bütün

dillərdə rast gəlinir. Məsələn, alman dilində: ***die Menge*** *-cəm,* ***rechnen*** *-hesablamaq,* ***der Rechner*** *-hesablayıcı maşın,* ***das Quadrat*** *-kvadrat* və s.

Dilin leksik sisteminin ən böyük və çoxcəhətli layı ümumişlək laydır. Bu lay insan fəaliyyətinin bütün sahələrinə aid olmaqla dildə terminlərin formalaşmasında və terminoloji leksikanın zənginləşməsində əsaslı rol oynayır. Amma termin və ya terminləşmiş söz artıq yeni bir xüsusiyyət definitivlik (müəyyənləşdirici) xüsusiyyət qazanır. Adi sözlər isə yalnız nominativ (adlandırma) funksiyaya malikdir. Dilçilik ədəbiyyatında bəzən terminin həm nominativ, həm də definitiv vəzifə daşıdığı qeyd edilir. Bu barədə dilçilikdə bəzən fikir ayrılığı da müşahidə edilir. Belə ki, akad.V.V.Vinoqradov terminin nominativ funksiya (adlandırma funksiyası) deyil, definitiv funksiya yerinə yetirdiyini göstərir: "Söz nominativ, yaxud definitiv funksiyanı yerinə yetirir, daha doğrusu, ya dəqiq qeydəalma vasitəsi olur, bu zaman söz işarədir, ya da ki, məntiqi təyinat vasitəsi olur, bu zaman söz elmi termindir."[1]

K.A.Levkovskaya bu məsələyə münasibətini bildirərək yazır: "Terminlər dilin başqa sözləri tərəfindən də yerinə yetirilən nominativ funksiya ilə yanaşı (bu və ya digər təsəvvürü ifadə etmək funksiyası) həm də özlərinin definitiv funksiyası ilə (müvafiq anlayışı təyin etmək funksiyası) fərqləndiyi üçün məna, işlənmə cəhətindən dilin sözləri içərisində xüsusi yer tutur", yaxud "definitiv funksiya məhz adi sözlərdən fərqlənən termin (elmi) üçün xarakterikdir."[2]

Terminologiyada sinonimlik məsələsi barədə xeyli araşdırmalar aparılmış, müxtəlif fikirlər söylənmişdir. Bəzi alimlərin fikrincə, sinonimlik terminologiya üçün nöqsan sayılır, digərləri isə sinonimliyi inkar etmirlər. N.Məmmədli də belə nəticəyə gəlir ki, dillərin bir-birinə qarşılıqlı təsiri nəticəsində terminoloji leksika zənginləşir və belə bir prosesdə dil təkcə yeni sözlər deyil, paralel sözləri də alır, bu halda sinonimlik yaranır.[3] Məsələyə birtərəfli yanaşmaq olmaz. Dilin lüğət tərkibində baş verən bu və ya digər hadisəni, eləcə də semantik prosesləri öyrənərkən real vəziyyətdən çıxış etmək lazımdır. Müxtəlif dillərdə çap olunan izahlı, sinonimlər, terminoloji lüğətlərdə olan dil vahidləri də sübut edir ki,

---

[1] В.В.Виноградов. Выступительное слово. Вопросы терминологии (Материалы всесоюзного терминологического совещания). Москва, 1961. с. 7.
[2] К.А.Левковская. Теория слова. Москва, 1947, с. 197.
[3] N.B.Məmmədli. Alınma terminlər. Bakı, 1997, səh. 114

terminologiyada da müəyyən qədər sinonimlik mövcuddur. Məsələn, hazırda *naqil* əvəzinə çox adam *keçirici* sözünü işlədir, *əyləc* əvəzinə *tormoz*, *istilah* əvəzinə *termin*, *müdavim* əvəzinə *dinləyici* kimi sinonim terminlərin hər ikisi işləkdir. Həmin sinonim terminlər dildə danışan şəxsdən asılı olmayaraq yaranır. Sinonimlərin yaranmasının əsasını əksər hallarda başqa dillərdən alınma sözlər təşkil edir. Məsələn: taxılbiçən (azərb.) –kombaym (ing.), sürücü (azərb.) –şofer (fransızca); tornaçı (azərb.) –tokar (rusca); say (azərb.) –tiraj (fransızca); sükan (ərəbcə) –rul (rusca); personaj (fransızca) –surət (ərəbcə); tip (yunanca) –obraz (rusca); metod (yunanca) –üsul (ərəbcə) və s.

Sinonimlik məsələsi sahə terminologiyasının hər bir sahəsində özünü büruzə verə bilir, adlandırmanın iki variantının -qısa və tam – sinxron mövcudluğu nəticəsində yaranır. Məsələn: alay polk, durbin-binokl, dezertir –fərari (hərb.); aysberq –buzdağı, atlas – xəritə (coğrafiya); Ay-Qəmər, ulduz –kovkəb (astronomiya); Allah-xuda–tanrı –ilahi-xudəvəndi –aləm-rəbb –yaradan (dini); universitet-darülfünün, leksiya-mühazirə (pedaq.); elan-afişa -anons-bildiriş - anşlaq (incəsənət); monoftonq-təkavazlı, fleksiya-dəyişmə (dilçilik) və s.

Terminologiyada çoxmənalılıq da özünü göstərə bilir, lakin bu, bir sahə üçün məqbuldur. Adətən bu və ya digər sözün eyni vaxtda sinxron planda bir neçə mənaya malik olması, müxtəlif qəbildən olan əşyaları, hadisələri, əlamətləri, münasibətləri ifadə etməsi terminologiyada çoxmənalılıq doğurur. "**Aqreqat**" sözünü götürək. Bu söz texniki termin kimi iki mənada işlənir. Birinci mənası "bir iş görmək üçün bir neçə müxtəlif maşın birləşməsindən ibarət qurğu"dur. İkinci mənası isə "mürəkkəb maşının tam bir hissəsi"dir. "Ampula" –birinci mənası "aktyorun xüsusiyyətinə görə ifa etdiyi rollar", ikinci mənası "rol, vəziyyət, məşğuliyyət dairəsi" kimi teatr terminidir. Bu terminlər bir sahədə çoxmənalıdır, onların başqa terminoloji sahəyə aidiyyatı yoxdur. Bunlardan fərqli olaraq latın mənşəli "aksent" sözü dörd mənada işlənir. Birinci və ikinci mənaları dilçilikdə; üçüncü mənası nəşriyyatda: hərf üstündə vurğu işarəsi; dördüncü mənası isə musiqidə ritmik vurğu, vəzn vurğusu anlayışlarını bildirir. Bu misaldan göründüyü kimi, aksent sözü ilk iki mənasına görə dilçilikdə çoxmənalı termin kimi, üçüncü və dördüncü mənalarda isə çoxmənalı deyil, omonim söz kimi işlənmişdir. Çoxmənalılığa bir çox digər terminoloji sahələrdə də rast gəlinir. Məsələn, *Rəy* -1. Bir şey haqqında fikir, mülahizə, söz.

2. Fikir, yazı (bir əsər, tamaşa, kitab və s. haqqında); *Anonim* - 1. Müəllifin adı bəlli olmayan əsər. 2. İmzasız. 3.Adı gizli tutulan müəllif (kargüzarlıq); *Avtomat* -1. öz-özünə işləyən aparat. 2.Avtomatik silah (tex.); *Anarxiya* -1.Hakimiyyətsizlik, hökumətsizlik. 2. Hər cür hakimiyyəti inkar edən (ictimai-siyasi) və s.

II fəslin dördüncü bölməsi termin və omonimlik adlanır. Terminologiyada çoxmənalılıq özünü göstərdiyi kimi, omonimlik də mövcuddur və bu, heç bir mübahisəyə səbəb olmamalıdır. Omonim terminlər müxtəlif sahə terminologiyasında müxtəlif məna qazanır. Məsələn, *atol* termini həm texniki, həm də kimya termini kimi neftdən alınan sürtgü yağını bildirir. Bu cür omonim terminlər ayrı-ayrı elm sahələrində işlədilir və onları omonim termin kimi yox, müştərək (ortaq) terminlər kimi qəbul etmək olar. Lakin elə terminlər (omonim) vardır ki, onlar ayrı-ayrı sahələrdə müxtəlif məna kəsb edirlər. Bunlar həm milli sözlərdən, həm də alınmalar hesabına yaranır. Məsələn, *mal* sözü həm heyvandarlıqda, həm də ticarətdə; ərəb mənşəli *kütlə* sözü fizikada, texnikada, mexanikada, sosiologiyada; latın mənşəli *affiks* sözü dilçilikdə, riyaziyyatda; ingilis mənşəli *layner* –dənizçilikdə, aviasiyada; *stoper* –texnikada, dənizçilikdə; alman mənşəli *şin* sözü –tibbdə, texnikada və s. kimi misallar göstərmək olar.

Beləliklə, terminologiyada omonimlik hadisəsinin xüsusi tədqiqi, bircə, dilin lüğət tərkibində terminin yerinin dəqiq müəyyənləşdirilməsinə xeyli kömək edə bilər.

Dilin terminoloji leksikasında baş verən mürəkkəb proseslərdən biri də determinləşmə hadisəsidir ki, bu barədə fəslin beşinci bölməsində məlumat verilir. Adi sözlər termin əlaməti qazandıqdan sonra terminləşdiyi kimi, terminlər də ümumişlək xarakter kəsb edərək adiləşir, yəni determinləşir. Elmin, sosial həyatın bütün sahələrində əvvəllər termin kimi işlənən dil vahidləri sonradan ümumişlək leksikaya keçə bilir. Bu proses tikinti, kulinariya, musiqi, incəsənət və digər elm sahələrində gedir. Məsələn, dəyər, dəyərli, *dəyərləndirmək, sələm, faiz* (iqtis.); *tənəffüs, tədris, tərbiyə* (pedaq.); *çiban, cərrah, qan* (tibb.); *finiş, ringq, start* (idman); *top, tank, qılınc, atəş, əsgər* (hərb.) və s. Terminoloji innovasiyaların funksional imkanları müvafiq terminoloji sistemdə və ondan kənarda semantik inkişafın fəallaşmasına, həmçinin determinləşməsinə təkan verir.

Lakin elə termin və termin birləşmələri vardır ki, onlar adi danışıq sözlərindən yaranaraq terminləşir və yalnız bu vəziyyətdə

qalır. Məsələn, *tamamlıq, zərflik, ədat* (dilçilik); *qərardad, qətnamə* (hüquq); *katalizator, kristallaşma* (kimya); *təcil, vatt, kilovat* (fizika); *apatiya, psixoloji gərginlik* (psixologiya) və s.

«Dildə terminləşmə prosesi» adlı **III fəsildə** semantik, morfoloji, sintaktik, kalka, abbreviatura, onomastik üsulu ilə terminyaratma, həmçinin dialektlərin termin yaradıcılığındakı rolu barədə söhbət açılır. Azərbaycan və ingilis dillərində terminlərin meydana gəlməsində və zənginləşməsində dilin daxili imkanlarının və alınma sözlərin böyük əhəmiyyəti vardır. Qarşılaşdırılan və müqayisə edilən dillərdə termin yaradıcılığında semantik üsulun əhəmiyyəti böyükdür. M.Qasımov yazır ki, yeni anlayışları yalnız mövcud sözlərlə ifadə etmək üsulu bəzən sözün semantik yükünü artırır. Müəllif sonra düzgün olaraq yazır ki, semantik üsul termin yaradıcılığında həmişə tətbiq olunan bir üsuldur... Semantik üsul hazırda da öz aktuallığını itirməmişdir.[1] Bu dillərdə semantik üsulla yaranan terminlər sahə terminologiyalarında müxtəlif anlayışları ifadə edir. Sözlərdə bir neçə cür məna növü mövcuddur: denotativ və siqnal mənalar, həqiqi və məcazi mənalar, konkret və mücərrəd mənalar və s. Terminologiyada sözlərin mənasının dəyişdirilməsində semantik üsuldan daha geniş istifadə edilir. Məsələn, *kövrəklik, həyəcan, dodaq, açar* və s. Bu üsulla yaranan terminlər ən çox mücərrəd anlayışları ifadə edir. Mücərrəd məna isə isimlərə xas olaraq konkret əşya ilə əlaqələnməyən ümumiləşdirici mənadır. Dilimizdə vaxtilə semantik üsulla yaranan bir çox sözlər termin kimi işlədilmiş, indi isə o, öz fəallığını itirmişdir. Buna səbəb elm və texnikanın sürətlə inkişaf etməsidir. Məsələn, zoologiyada işlənən *tırtıl* termini texniki termin kimi maşının yoldakı mancələri keçmə qabiliyyətini artırmaq üçün traktorda, tankda, ekskavatorda və təkəri əvəz edən enli zəncirdir.

Dilimizdə semantik cəhətdən terminlərin yaranması prosesində alınmaların da böyük rolu vardır. Məsələn, *maqnitofon, televizor, radio (məişət), spiker, lider, biznes (ictimai-siyasi) ; kompyuter, diaqnoz, orbit (müxt. sahələr) ; tank, general (hərb)* və s.

İngilis dilində ilkin mənalarından uzaqlaşmış yeni mənalar qazanaraq semantik dəyişməyə məruz qalmış əşya və anlayışların bu və ya digər əlamətlərinin başqa məfhuma köçürülməsi yolu ilə əmələ gələn terminlər çoxdur. Sözlərin yeni yaranan mənaları əvvəlkindən o dərəcədə uzaqlaşır ki, artıq yeni terminlərin

[1] M.Ş.Qasımov. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, 1973, s. 122.

yaranmasından bəhs etmək lazım gəlir. Məsələn, ingilis dili hərbi terminoloji sistemində mövcud olan ***missile*** sözü həm istənilən növ silah, həm də dağıdıcı vasitə olan raket mənasını ifadə edir; *pawl* sözü dilçək, qoryucu, lövbəri qaldırmaq üçün gəmilərdə dolama çarx; *foil* nazik çarx, məşq qılıncı, heyvan izi və s.

Termin yaratmada morfoloji üsulun rolu daha böyükdür və məhsuldarlığına görə çox xarakterikdir. Azərbaycan dili iltisaqi dil qrupuna daxildir və bu dildə, ingilis dilindən fərqli olaraq, sözün sonuna şəkilçi artırmaqla yeni mənalı söz və terminlər əmələ gəlir. Azərbaycan dilində bir çox məhsuldar leksik şəkilçilər vardır ki, bunlar da termin yaratmada mühüm rol oynayır. Məsələn –çı[4], -lıq[4], -lı[4], -ma[2], sız[4] və s. şəkilçilərin köməyi ilə çoxlu sayda terminlər yaradılır ki, bu da dildə müxtəlif sahə terminoloji sisteminin zənginləşməsinə səbəb olur. Başqa dillərdən alınmış şəkilçilərdən də dilimizdə terminyaratmada istifadə olunur. Ərəb və fars mənşəli -iyyət[2], -pərvər, -gah, -pərəst, -şünas və s. şəkilçilərlə yaranan sözlərə *lüğətşünas, musiqişünas, maarifpərəst, mülkiyyət, ziyarətgah, qərargah, millətpərvər* və s. misal göstərmək olar.

İngilis dilinə aid yazılmış tədqiqat əsərlərindən məlum olur ki, bu dildə 150-ə yaxın sözyaradıcı suffikslər fəaliyyət göstərir[1]. Onların əsas fərqləndirici cəhətləri isə artırıldığı sözdə yaratdığı semantik çalar və hansı nitq hissəsinə aid olan sözlərə daha çox əlavə olunmasıdır. Müasir ingilis dilində çox rast gəlinən və bütövlükdə leksik sistemdə olduğu kimi, terminyaratmada da məhsuldarlığı ilə seçilən aşağıdakı affiksləri nümunə göstərmək olar: **- able, -ible, -age, -al** və s. Məsələn, ***arable*** *-şum üçün yarayan,* ***eligible*** *-hüququ çatan,* ***pilotage*** *-təyyarə sürmə,* ***linkage*** *-bəndləmə,* ***geographical*** *-coğrafi,* ***global****-ümumdünya,* ***medical*** *-tibbi* və s.

Bundan başqa **-an, -eer, -ier, -ist** suffiksləri də morfoloji üsulla terminyaratmada xüsusi rol oynayır. Bu sözdüzəldici morfemləri birləşdirən əsas xüsusiyyət odur ki, onlar əksər hallarda adlara qoşulur və nominativ məzmun daşıyan müxtəlif sahə terminoloji sisteminə aid olan, sənət, peşə semantikalı terminlər yaradır. Bu şəkilçilərin yaratdığı mənalar Azərbaycan dilində məhsuldar hesab olunan **-çı**[4] sözdəldici morfeminin yaratdığı semantikaya uyğun gəlir. Məsələn, ***rocketeer*** *-raketçi,* ***electrigian****-elektrik,* ***atheist*** -

---

[1] П.М.Каращук. Аффиксальное словообразование в английском языке. Москва, 1965, стр. 18.

ateist, ***terrorist*** *-terrorist* və s. **–ance** suffiksi ilə Azərbaycan dilindəki –ma şəkilçisinin yaratdığı semantikaya yaxın mənalı terminlər yaradılır: ***insurance*** *-sığortalanma*, ***resistance-müqavimət göstərmə*** və s. Azərbaycan dilindən fərqli olaraq, ingilis dilində terminyaratmada prefikslər (ön şəkilçilər) də xüsusi rol oynayır. Məsələn, **anti-, counter-, de-, dis-, micro-, pre-, sub-**[1] və s. Bu dildə mövcud olan xeyli sayda prefikslərin köməyi ilə müxtəlif sahə terminologiyasına aid olan çoxsaylı terminoloji vahidlər yaradılır. Məsələn, ***antiaggression*** *-təcavüzə qarşı mübarizə*, ***counterreaction*** *-əks reaksiya*, ***antipathy*** *-antipatiya*, ***countersing*** *-parol*, ***decode*** *-kodu ləğv etmək*, ***disarm*** *-tərkisilah etmə*, ***microsecond*** *-mikrosaniyə*, ***microelectronics*** *-mikroelektronika*, ***subeditor-redaktor köməkçisi***, ***remand*** *-əyri*, ***prehencile*** *- caynaqlı* və s.

III fəlsin üçüncü bölməsində onomastik vahidlər əsasında yaranan terminlər sahələr üzrə qruplaşdırılmış, onların üslubi məna dəqiqliyi aydınlaşdırılmışdır. İstər Azərbaycan, istərsə də ingilis dilində onomastik adlar əsasında yaranan terminlər üslubi nöqteyinəzərdən məna dəqiqliyi, məna incəliyi yaradır. İngilis dilində bəzi xüsusi adlar yeni məna kəsb edərək terminoloji sistemdə müəyyən anlayışı adlandırmağa xidmət edir. Məsələn: ***Fermi brim*** *-Fermi sərhədi*, ***Doppler broadening*** *- dopler genişliyi*, ***Anthrax*** *-Sibir yarası*, ***Bren*** *-əl pulemyotu*, ***Booing*** *-bombardımançı təyyarə*, ***Duck of Miller*** *-Müller kanalı*, ***Kerr cathode*** *-Kerri elementi*[2].

Sintaktik üsulla yaranan termin –söz birləşmələri struktur-semantik xüsusiyyətlərinə görə əksər sahə terminoloji sistemində eyni şəkildə formalaşır və tərkibi baxımından iki və daha çox sözlərin qrammatik-semantik əsaslarla birləşməsindən yaranır. Bu cür terminlər hər hansı bir dilin öz daxili imkanları və ya alınma termin və sözlərin köməyi ilə əmələ gəlir. Belə terminlər əsasən iki yolla: 1) leksik-sintaktik; 2) morfoloji-sintaktik üsulla yaranır və müxtəlif sahə terminologiyalarında özünü göstərir.

1. Leksik-sintaktik yolla yaranan terminlər hər iki tərəfi milli mənşəli, birinci tərəfi alınma, ikinci tərəfi milli mənşəli, hər iki tərəfi alınma sözlərdən ibarət ola bilir. Məsələn: *ağquyruq* (heyvan), *qarabatdaq* (quş), *qaratikan* (bitki) (hər iki tərəf milli); *radiodalğa*,

---

[1] Annette Capel, Lorna Heaslip, Marina Maher, Douglas Williamson. English Guides word formation. Harper Collins Publishers LTD. 1991, p. 204, 267, 293.

[2] Англо-русский военный словарь. Москва, 1968; Англо-русский химико-технологический словарь. Москва, 1975; Англо-русский медицинский словарь. Москва, 1988,стр.602.

fotoşəkil (birinci alınma, ikinci milli); *kinoaktyor, fotoaparat, rentgenoqrafiya, radioteleqraf, kinoteatr* (hər iki tərəf alınmalardan ibarət).

2. Morfoloji-sintaktik üsulla əmələ gələn terminlər həm leksik, həm də qrammatik şəkilçilərdən istifadə olunmaqla yaranır. Məsələn, *taxılbiçən, təkhecalı, cüttərkibli* və s.

Sintaktik üsulla yaranan terminlərin bir qrupunu söz birləşmələri şəklində olan terminlər təşkil edir. Məsələn, Azərbaycan dilində: *abstrakt məna, baş hərf, qrammatik göstərici* (dilçilik); *natamam xanə, qoşa nağara, qoşa tərkib* (musiqi); *quru iqlim, isti külək, narın yağış* (coğrafiya); *xam torpaq, əkilməmiş sahə* (kənd təs.); *lokal səviyyə, nöqtəvi triod, ümumi fizika* (fizika); *atıcı polk, hərbi texnika, qanadlı raket* (hərb) və s; ingilis dilində: ***air battle**-hava nasosu*, ***comphor water** –kamfora suyu* (kim.); ***colour blind**-rəng korluğu*, ***compound cyst**-mürəkkəb kista* (tibb); ***energy level**-enerji səviyyəsi* (fizika); ***photoelectrik cell**-fotoelement*, ***film star** - kinoulduz* (kino); ***rolled consonant** –titrək samit*, ***speech melody** – nitq melodiyası*, ***spoken language** –danışıq dili*, ***direct speech**-vasitəsiz nitq* (dilçilik), ***olympic games**-olumpiya oyunları*, ***club team**-komanda klubu*, ***central defender**-mərkəz müdafiəçi* (idman); ***market cycles**-bazar markaları*, ***net income**-təmiz gəlir*, ***small business**-kiçik ticarət* (iqtis.) və s. Azərbaycan dilində olduğu kimi ingilis dilində də müxtəlif sözlər təyinedici sözlərlə struktur və semantik baxımdan birləşərək yeni məzmun kəsb edir və mürəkkəb, çoxfunksiyalı elmi-texniki anlayışları ifadə edən termin-söz birləşmələri əmələ gətirir. Məs.: *fuels* –yanacaq sözü tanker, depot, range, reserve, station və s. sözlərlə birləşərək onun təyinedicisi funksiyasını daşıyır: ***fuel tanker**-tankerçi*, ***fuel station**-yanacaq doldurma stansiyası*, ***fuels depot**-yanacaq anbarı*, ***fuel reserve**-ehtiyat yanacaq*, ***fuel range** –ehtiyat yanacaqla uzaq səfər* və s. İngilis dilində də yaranan termin-söz birləşmələrində nüvə sözlər xüsusi rol oynayır. Məsələn: ***motor nerve ending** –hərəkət sinirlərin sonluğu*, ***nerve ending**-sinirlərin sonluğu*, ***ground bundle** –onurğa beynində sinir liflərinin əsası*, ***ground ivy**-pişik nanəsi*, ***ground mustard**-toz halında xardal*, ***ground nut oil**-yerfındığı yağı* (tibb); ***Front line**- cəbhə xətti*, ***reassenmble the front**-cəbhə xəttini bərpa etmək*, ***roll up the font**-müdafiə xəttini dağıtmaq* (hərb.) ***fatty aeid**-yağlı kislota*, ***fatty alcohol**-yağ halında spirt* və s.

Sözügedən dillərdə sintaktik yolla terminyaratma prosesində müşahidə edilən fərqli əlamət birində (Azərbaycan dilində) idarə

əlaqəsinin, digərində (ingilis dilində) isə yanaşma əlaqəsinin üstünlüyü ilə bağlı şəkildə üzə çıxır.

Tədqiqatın III fəslinin beşinci bölməsində terminləşmə prosesində dialektlərin ədəbi dilə təsiri, altıncı bölmədə isə kalkalaşmanın operativliyi dil faktları ilə əsaslandırılır.

Terminyaratma vasitələrindən biri də söz və söz birləşmələrinin ixtisar şəkildə verilməsidir. Dildə qısaltmaların (abbreviaturların) əmələ gəlmə prosesini hər hansı mövcud dil vahidlərinin şifahi və ya yazılı nitqdə əvvəlki dil vahidləri əsasında və əvvəlki ümumi məzmunu saxlamaqla daha qısa ifadələrlə əvəz etmək zərurəti ilə izah etmək olar. Abbreviaturalar müxtəlif üsulla yarandığına görə terminoloqlar ixtisarların, əsasən üç növünü qeyd edirlər: a)hərfi ixtisarlar; 2) heca ixtisarları; c) heca-söz (termin) ixtisarları. Məsələn, c-cənub, q-qərb, XD–xüsusi dəstə, MM-Milli Məclis, BMT-Birləşmiş Millətlər Təşkilatı, ABƏŞ-Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, ARDNŞ-Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və s.

İngilis dilində də qısaltmalar sözün ilk hərfi, sözün bir hissəsi və ya sözün arasındakı hərflərinin ixtisarı ilə yaranır. Məsələn, v-verb, N-North, E-East, n-noun, RRC –Royal Red Cross –Qırmızı Xaç Cəmiyyəti, HO – head office–baş idarə, IASR –International Association of Sports Press –Beynəlxalq İdman Məlumat Assosiasiyası, KM-Knowledge management-Məlumatın idarəedilməsi, ASR -American Stock Exchange –Amerikanın Fond Birjası[1] və s.

Heca ixtisarları ilə yaranan terminlərdə hər hansı bir sözün başlanğıc hissələri götürülür. Məsələn, minbat –minamyot batareyası, Azpetrol –Azərbaycan petroliumu, Bakkonzavod –Bakı Kondisioner Zavodu. İngilis dilində, pl. –plural, Eximbank –Export-Import Bank, def.art –definite article, pref –prefix, conj. –conjunction, amb –ambulance və s.

Heca-söz (termin) ixtisarları birinci sözün başlanğıc hissəsinin bütöv sözlə birləşməsindən yaranır: avtomagistral, aviazavod, mikrorayon və s. Sözün orta hissəsinin ixtisarı ilə yaranan ixtisarlar defislə (-) yazılır. Məsələn, d-k –doktor, z-d –zavod və s. Azərbaycan və ingilis dillərində bu proses geniş və çoxplanlıdır və ayrı-ayrı sahə terminoloji sistemlərində özünəməxsus spesifik xüsusiyyətləri müşahidə edilir. İngilis dilində abbreviasiyanın

[1] Nazarova T.B. Dictionary of General Buisness English Terminology. Moscow, 2002, p. 42, 48, 49.

müxtəlif formalarda meydana çıxması özünü göstərir və bu, prinsip etibarı ilə Azərbaycan dilindəki prosesdən fərqlənmir.

Dillərin və cəmiyyətin müasir inkişaf mərhələsində abbreviaturanın ayrı-ayrı növlərindən müxtəlif məqsədlərlə və müxtəlif şəkildə istifadə olunur. Yəni elm, texnika, siyasət və s. sahələr inkişaf etdikcə abbreviaturalar da kəmiyyət baxımından çoxalır. «Belə ki, elmi-texniki tərəqqi əsrində sənayenin fasiləsiz inkişafı bir tərəfdən istehsalat leksikasını zənginləşdirir, ikinci tərəfdən ...onların nominativ adlarının da leksik təkamülünə gətirib çıxarır.»[1] Bunun əsas nümunələrindən biri kimi, mürəkkəb, çoxkomponentli adların-terminlərin qısaldılmış formasıdır ki, bu tipli leksik-terminoloji vahidlər –abbreviaturalar da öz növbəsində dilin bütövlükdə leksik qatının zənginləşməsinə, onun ifadə imkanlarının genişlənməsinə kömək edir.

Dissertasiyanın əsas müddəalarını ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

- Dilin elmi üslubunda aparıcı mövqe tutan və onun formalaşmasında xüsusi rol oynayan terminlər işlənmə dairəsinə görə ümumişlək və xüsusi termin laylarından ibarətdir.
- Hər hansı söz sahə terminologiyasına tətbiq edildikdə terminləşərək, müəyyən sahədə hər hansı bir anlayışın ifadəsinə çevrilir. Sözlərin terminləşməsi terminoloji sisteminin zənginləşməsinə səbəb olur.
- Azərbaycan dilçiliyində terminlərin sinonimliyi araşdırılaraq bu sahədə olan mübahisəyə son qoymaq üçün bir təşəbbüs göstərilmiş, belə bir araşdırma Azərbaycan terminologiyasında elmi-nəzəri və praktik əhəmiyyəti ilə gələcək tədqiqatlar üçün böyük perspektivlər açmışdır.
- Terminlər morfoloji mənsubluq baxımından əsas nitq hissələrindən ismə, sifətə, saya və felə aid ola bilir. Bu, hətta, sinonim terminlərdə də müşahidə olunur.
- Tədqiqat göstərir ki, termin ancaq bir sahədə çoxmənalı ola bilər. Əgər bir termin müxtəlif anlayışları bildirərsə, bu vaxt çoxmənalılıq yox, omonimlik özünü göstərir.
- Terminoloji leksika, əsasən, semantik, morfoloji, sintaktik, kalka, sözlərin ixtisarı və ya qısaldılması yollar ilə əmələ gəlir.
- Araşdırmalar göstərir ki, müasir Azərbaycan və ingilis dillərinin terminologiyasında onomastik adlar da bir çox terminin əmələ

[1] N.M.Xudiyev. Azərbaycan ədəbi dilinin sovet dövrü. Bakı, 1989, səh. 328.

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК
АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ЯЗЫКОЗНАНИЕ им. НАСИМИ

На правах рукопис

КУРБАНОВА ЛАЛА КАДЫР кызы

МЕСТО ТЕРМИНОЛОГИЧЕСКОЙ ЛЕКСИКИ В ЛЕКСИЧЕСКОЙ СИСТЕМЕ ЯЗЫКА

10.02.19 – Теория языка

А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание ученой степени кандидата
филологических наук

БАКУ - 2005